**"BCR co-brand" Ödəniş kartının buraxılmasının, "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə Müqaviləyə xitam verilməsinin xüsusiyyətlərini, habelə Kartdan istifadə etməklə Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesablanması, təqdim edilməsi, istifadəsi və silinməsi, Kart saxlayıcısına həmin Kart üzrə digər imtiyazların təqdim edilməsi qaydasını müəyyən edən Qaydalar (bundan sonra – Qaydalar)**

**1. Bu Qaydaların məqsədləri üçün onlarda aşağıdakı terminlərdən istifadə olunur:**

1.1. "BCR co-brand" Ödəniş kartı – "Baku City Residence" (BCR) adı altında müvafiq tikinti layihələrini həyata keçirən tikinti şirkət(lər)i (bundan sonra - tikinti şirkət(lər)i) ilə Bank arasında bağlanılmış Əməkdaşlıq haqqında Müqavilə(lər) (bundan sonra - "Əməkdaşlıq haqqında Müqavilə" adlandırılacaq) çərçivəsində buraxılan, həmin tikinti şirkət(lər)inin Banka təqdim etdiyi siyahıda qeyd olunan şəxslərə Bank tərəfindən verilən, Kart saxlayıcısı tərəfindən bu Qaydalarla nəzərdə tutulmuş Nağdsız əməliyyatların aparılmasına görə Mükafatın (bundan sonra – Cashback) hesablanmasını, hesablanmış Cashback məbləğinin "BCR co-brand" Ödəniş kartı üzrə KH-ya köçürülməsini və digər imtiyazları nəzərdə tutan Ödəniş kartı;

1.2. Nağdsız əməliyyat - həm Azərbaycan Respublikasının ərazisində, həm də xaricdə yerləşən TXM-lərdə (müvafiq tikinti şirkət(lər)i daxil olmaqla) "BCR co-brand" Ödəniş kartı və ya onun rekvizitlərindən istifadə etməklə malların (işlərin, xidmətlərin) ödənilməsi əməliyyatı.

Bank Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesablanması nəzərdə tutulmayan TXM-lərin kateqoriyalarını (onların MCC kodlarını göstərməklə) və bunlara müvafiq olaraq Cashback hesablanması nəzərdə tutulmayan Nağdsız əməliyyatların siyahısını müstəqil şəkildə müəyyən edir. Ödəniş kartından istifadə etməklə aparılan və Cashback hesablanması nəzərdə tutulmayan Nağdsız əməliyyatların siyahısı Kart saxlayıcısının tanış olması üçün Bankın www.xalqbank.az web-saytında yerləşdirilir.

1.3. MCC kod (Merchant Category Code) - TXM-ləri fəaliyyət növü üzrə təsnifləşdirməyə imkan verən universal beynəlxalq 4 rəqəmli MCC kodudur. MCC kodları Ödəniş sistemlərinin qaydalarına uyğun olaraq, bu TXM-lərə xidmət göstərən ekvayer-kredit təşkilatları tərəfindən təyin edilir və Ödəniş kartı və ya onun rekvizitlərindən istifadə etməklə həmin TXM-də malların (işlərin, xidmətlərin) ödənilməsi üzrə aparılmış əməliyyat barədə məlumatlara daxil edilir;

1.4. MCC kodlar qrupu – oxşar fəaliyyət növləri (məsələn, geyim satışı, market alış-verişi, təmizlik xidmətləri, turizm və istirahət xidmətləri və s.) üzrə bu Qaydaların məqsədləri üçün bir qrupa birləşdirilmiş müvafiq MCC kodlar. Bank Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesablanması nəzərdə tutulan MCC kodlar qruplarını müstəqil şəkildə müəyyən edir. Kart saxlayıcısının tanış olması üçün Cashback hesablanması nəzərdə tutulan MCC kodlar qruplarının siyahısı Bankın www.xalqbank.az web-saytında yerləşdirilir;

1.5. Cashback – Kart saxlayıcısı tərəfindən Nağdsız əməliyyatların aparılmasına görə bu Qaydalarla müəyyən edilən şərtlərlə və qaydada Bank tərəfindən Kart saxlayıcısına, onun "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına həmin Kartın valyutasında mədaxil edilməklə pul formasında ödənilən mükafat;

1.6. Cashback hesabı - Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartına bağlı olan, Bankın daxili uçot sistemində aparılan və bu Qaydalara müvafiq olaraq Cashback məbləğinin hesablanması və silinməsi üçün nəzərdə tutulan texniki hesab;

1.7. Cashback məbləğinin silinməsi – bu Qaydalarla nəzərdə tutulmuş əsaslarla Cashback hesabında olan Cashback məbləğinin azaldılması və ya Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sında olan vəsaitlər hesabına Cashback məbləğinin silinməsi ilə nəticələnən prosedur;

1.8. Hesabat dövrü - "BCR co-brand" Ödəniş kartının qüvvədə olduğu müddət çərçivəsində Kart saxlayıcısının Nağdsız əməliyyatları apardığı və əvvəlki təqvim ayının sonuncu iş günündən növbəti gələn gündən başlamaqla cari təqvim ayının sonuncu iş gününə (daxil olmaqla) qədər davam edən vaxt dövrü.

**2. "BCR co-brand" Ödəniş kartının buraxılmasının və "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə Müqaviləyə xitam verilməsinin xüsusiyyətləri**

2.1. "BCR co-brand" Ödəniş kartı Bank tərəfindən 3 (üç) il müddətinə buraxılır.

2.2. "BCR co-brand" Ödəniş kartının qüvvədə olduğu müddət ərzində Kart saxlayıcısı tərəfindən yalnız digər növlü 1 (bir) ədəd "BCR co-brand" Əsas kartın əldə edilməsi mümkündür.

2.3. "BCR co-brand" Ödəniş kartına Əlavə kartın buraxılması nəzərdə tutulmamışdır.

2.4. Bu Qaydaların 2.6.- 2.11-ci bəndlərində nəzərdə tutulan hallar, habelə Müqaviləyə müvafiq olaraq Bankın təşəbbüsü ilə Müqavilənin ləğv edildiyi hallar istisna olmaqla, "BCR co-brand" Ödəniş kartı üzrə KH-nın bağlanması və KH-da olan vəsait qalığının Bank tərəfindən Kart saxlayıcısına qaytarılması sonuncunun Banka təqdim etdiyi müvafiq yazılı ərizəsi əsasında həyata keçirilir. Bu zaman "BCR co-brand" Ödəniş kartı üzrə KH-nın bağlanması Kart saxlayıcısının ərizəsində Müqaviləyə xitam verilməsi tarixi kimi nəzərdə tutulmuş tarixdə, KH-da olan vəsait qalığının qaytarılması isə Kart saxlayıcısı tərəfindən bu Qaydalara müvafiq olaraq ona verilmiş Kartın Banka qaytarıldığı gündən 33 (otuz üç) gün keçdikdən sonra həyata keçirilir. Kart saxlayıcısı Kartın Banka qaytarılmasından imtina etdikdə və ya Kartın qaytarılması qeyri-mümkün olduqda KH-da olan vəsait qalığının qaytarılması Kart saxlayıcısının ərizəsində Müqaviləyə xitam verilməsi tarixi kimi nəzərdə tutulmuş tarixdən 33 (otuz üç) gün keçdikdən sonra həyata keçirilir.

Bank, bu Qaydaların 2.6-cı, 2.8-ci və 2.10-cu bəndlərində nəzərdə tutulmuş hallarda Müqaviləyə xitam verildiyi, 2.7-ci, 2.9-cu və 2.11-ci bəndlərində isə "BCR co-brand" Ödəniş kartının qüvvədə olma müddətinin bitdiyi tarixdən 33 (otuz üç) gün keçdikdən sonra müvafiq "BCR co-brand" Ödəniş kartı üzrə KH-da olmuş/olan vəsaitin qalığını, habelə cari hesabında olan sığorta məbləğini (Bankın Tarifləri ilə nəzərdə tutulduğu halda) Kart saxlayıcısına qaytarır.

2.5. Kart saxlayıcısının müvafiq tikinti şirkət(lər)indən əldə etdiyi yaşayış/qeyri-yaşayış sahəsini özgəninkiləşdirdiyi, həmçinin həmin yaşayış sahəsində yaşamadığı/qeyri-yaşayış sahəsindən istifadə etmədiyi hallarda müvafiq tikinti şirkət(lər)i tərəfindən həmin Kart saxlayıcısının müvafiq "BCR co-brand" Ödəniş kartının ləğv edilməsi və həmin Ödəniş kartı üzrə KH-sının bağlanması (Müqavilənin müvafiq "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə ləğv olunması) barədə Banka müraciət edildikdə, Bank Kart saxlayıcısının həmin Ödəniş kartını xidmət haqqı ödəyib-ödəmədən əldə etməsindən asılı olaraq sonuncuya bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulan vasitələrlə aşağıdakılar barədə məlumat verir:

2.5.1. Ödəniş kartı xidmət haqqı ödənilməklə əldə edildikdə Bank tərəfindən bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulan müddətdə Kart saxlayıcısının müvafiq "BCR co-brand" Ödəniş kartının ləğv olunacağı və həmin Kart üzrə KH-sının bağlanacağı (Müqavilənin müvafiq "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə ləğv olunacağı), habelə müvafiq Ödəniş kartının istifadə müddətinin bitməsinə qalan müddət üçün ödənişsiz olaraq həmin Ödəniş kartının növündə Bankda mövcud olan digər kart məhsulu çərçivəsində yeni Kart əldə edə bilmə imkanı barədə; və ya

2.5.2. Ödəniş kartı xidmət haqqı ödəmədən əldə edildikdə Bank tərəfindən bu Qaydaların 2.6-cı bəndində nəzərdə tutulan müddətdə Kart saxlayıcısının müvafiq "BCR co-brand" Ödəniş kartının ləğv olunacağı və həmin kart üzrə KH-sının bağlanacağı (Müqavilənin müvafiq "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə ləğv olunacağı) barədə.

2.6. Bank müvafiq Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartını xidmət haqqı ödəyib-ödəmədən əldə etməsindən, habelə bu Qaydaların 2.5.1-ci yarımbəndinə uyğun olaraq yeni Kart

əldə etmək üçün Banka müraciət edib-etməməsindən asılı olmayaraq həmin Kart saxlayıcısına aşağıdakı vasitələrlə bu Qaydaların 2.5-ci bəndinə müvafiq olaraq məlumat verdiyi tarixdən 30 (otuz) gün keçdikdən sonra onun həmin Kartını ləğv edir və Kart üzrə KH-sını bağlayır (Müqaviləni müvafiq "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə ləğv edir):

2.6.1. Bankda telefon zənglərinin səs yazısının aparıldığı hallarda – zəng və ya SMS vasitəsilə;

2.6.2. Bankda telefon zənglərinin səs yazısının aparılmadığı hallarda – SMS və ya zəng və SMS vasitəsilə.

2.7. Müvafiq Əməkdaşlıq haqqında Müqavilə çərçivəsində "BCR co-brand" Ödəniş kartının təqdim edildiyi Kart saxlaycısı həmin Əməkdaşlıq haqqında Müqaviləyə xitam verildikdən sonra həmin Kartın istifadə müddəti bitənədək Bankla digər tikinti şirkət(lər)i arasında mövcud olan Əməkdaşlıq haqqında Müqavilə(n)(lər)in qüvvədə olduğu müddət ərzində bu Kartdan istifadə edə bilər. Həmin Kartın qüvvədə olma müddəti bitdikdən sonra həmin Kart yeni müddətə buraxılmır və Kart saxlayıcısının müvafiq "BCR co-brand" Ödəniş kartı üzrə KH-sı həmin Kartın qüvvədən düşdüyü tarixdən keçən 33 (otuz üç) gündən sonra bağlanılır (Müqavilə müvafiq "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə ləğv edilir).

2.8. Müqavilə, "BCR co-brand" Ödəniş kart(ı)(ları)nın aid olduğu KH-(y)(lar)a münasibətdə hazırkı Qaydaların 2.6-cı, 2.7-ci və 2.9-cu bəndlərinin müddəaları nəzərə alınmaqla Əməkdaşlıq haqqında Müqavilələrdən sonuncusunun (qüvvədə olma müddəti daha gec bitən) qüvvədə olduğu müddətə qədər öz qüvvəsini saxlayır.

2.9. Müqavilə onun çərçivəsində verilmiş sonuncu "BCR co-brand" Ödəniş kartının qüvvədə olma müddətinin bitməsi tarixindən keçən 34-cü (otuz dördüncü) gündə xitam edilir, bu şərtlə ki, Kart saxlayıcısı bu Qaydaların 2.7-ci bəndində qeyd olunan hal istisna olmaqla, Kartın qüvvədən düşdüyü tarixdən 33 (otuz üç) gün keçənə qədər Kartın yenidən buraxılması haqqında Banka yazılı ərizə ilə müraciət etməsin. Kart saxlayıcısının müraciəti əsasında Bank tərəfindən Kartın yenidən buraxılması yalnız Kart saxlayıcısının müraciəti anına Müqavilənin və bu Qaydaların şərtləri ilə Bank və müvafiq tikinti şirkət(lər)inin əməkdaşlığı çərçivəsində Bank tərəfindən həmin növlü "BCR co-brand" Ödəniş kartlarının buraxılması həyata keçirildiyi təqdirdə mümkündür.

2.10. Bankla BCR adı altında tikinti layihələrini həyata keçirən bütün tikinti şirkətləri arasında əməkdaşlıq münasibətlərinə xitam verilməsi nəzərdə tutulduqda, Müqaviləyə xitam verilməsi barədə məlumat Bank tərəfindən müvafiq Əməkdaşlıq haqqında Müqavilələrə xitam verilməsinin nəzərdə tutulduğu tarixə ən azı 50 (gün) gün qalmış SMS vasitəsilə Kart saxlayıcısının nəzərinə çatdırılır. Bu zaman müvafiq məlumatda qeyd olunan tarixdən etibarən Müqavilə bütün "BCR co-brand" Ödəniş kartlarının aid olduğu KH-lara münasibətdə ləğv edilmiş sayılır.

2.11. Bu Qaydaların 2.10-cu bəndində nəzərdə tutulan xəbərdarlıq müddəti ərzində "BCR co-brand" Ödəniş kartının qüvvədə olma müddəti bitdikdə Müqavilə həmin "BCR co-brand" Ödəniş kartının aid olduğu KH-ya münasibətdə bu Kartın qüvvədən düşdüyü tarixdən 33 (otuz üç) gün keçdikdən sonra, lakin hər bir halda xəbərdarlıq müddətinin bitdiyi tarixdən gec olmayaraq xitam edilir.

## *3. "BCR co-brand" Ödəniş kartı üzrə KH-da olan pul vəsaitinin qalığına faizlərin hesablanması qaydası*

3.1. KH-da olan pul vəsaitinin qalığına (onun müvafiq hissəsinə) Bankın Tarifləri ilə müəyyən edilmiş miqdarda və şərtlərlə Bank tərəfindən gündəlik olaraq faizlər hesablanır. KH-da olan pul vəsaitinin qalığına (onun müvafiq hissəsinə) gündəlik hesablanmış faizlər cari təqvim ayının son iş günü KH-ya mədaxil edilir. Kart saxlayıcısı KH-da olan pul vəsaitinin qalığına (onun müvafiq hissəsinə) təqvim ayı ərzində hesablanmış və həmin ayın sonuncu iş günündə Bank tərəfindən KH-ya mədaxil edilmiş faizlərin məbləği barədə məlumatı Müqavilənin 3.3.13-cü yarımbəndində nəzərdə tutulmuş Bankın müvafiq xidmətlərinin hər hansı birindən istifadə etməklə əldə edə bilər. Bankın "XalqOnline" internet/mobil banking tətbiqində, həmçinin KH-da olan pul vəsaitinin qalığına gündəlik hesablanan faizlərin məbləği barədə məlumat əks olunur.

## *4. Cashback hesablanması, təqdim edilməsi, istifadəsi və silinməsi şərtləri və qaydası*

4.1. Kart saxlayıcısı "BCR co-brand" Ödəniş kartından istifadə etməklə Nağdsız əməliyyatları həyata keçirir, Bank isə aparılmış əməliyyatları emal və təhlil edir və Kart saxlayıcısına bu Qaydalarla nəzərdə tutulmuş şərtlərlə və qaydada Cashback hesablanmasını və təqdim edilməsini təmin edir. Aparılmış Nağdsız əməliyyatların təhlili zamanı Bank əməliyyat barədə əldə etdiyi məlumatın tərkibində olan MCC koddan istifadə edir.

4.2. Cashback Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartının qüvvədə olduğu müddətdə cari Hesabat dövrü ərzində Kart saxlayıcısı tərəfindən TXM-lərdə bu Qaydaların 1.2-ci bəndinin ikinci abzasında qeyd edilən əməliyyatlar istisna olmaqla, Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesabında hesablanıb bu Qaydaların 4.6-cı bəndində nəzərdə tutulmuş qaydada Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülür.

4.3. Cashback hesablanması zamanı Bankın partnyor olmayan TXM-lərində bu Qaydaların 4.4.2-ci yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən olunmuş Cashback məbləğinin aylıq limitlərinə riayət olunmaqla, cari Hesabat dövründə "BCR co-brand" Ödəniş kartı üzrə KH-da əks olunmuş Nağdsız əməliyyatlar, yəni KH-dan faktiki silinmiş pul vəsaitlərinin məbləği nəzərə alınır. Bu zaman Nağdsız əməliyyatların hesablanmış məbləğləri əvvəllər "BCR co-brand" Ödəniş kartından istifadə etməklə ödənilmiş malın TXM-ə qaytarılması (iş və ya xidmətdən imtina olunması) əməliyyatlarının (reverse əməliyyatları) məbləğləri qədər azaldılır.

4.4. Kart saxlayıcısı tərəfindən Hesabat dövrü ərzində aparılmış Nağdsız əməliyyatlar üzrə Cashback bu Qaydaların 4.3-cü bəndinin müddəaları nəzərə alınmaqla aşağıdakı Mükafat dərəcələrinə əsasən hesablanır:

4.4.1. **Bankın partnyor TXM-lərində** - həmin TXM-lər ilə razılaşmaya əsasən müəyyən edilən Mükafatlandırma dərəcəsinə əsasən. Bankın partnyor TXM-lərinin siyahısı ilə Bankın www.xalqbank.az web-saytında tanış olmaq mümkündür;

4.4.2. **"BCR" adı altında müvafiq tikinti layihələrini həyata keçirən tikinti şirkət(lər)ində** - Əməkdaşlıq haqqında Müqavilə(lər) ilə müəyyən edilən Mükafatlandırma dərəcəsinə əsasən. Bankın Əməkdaşlıq haqqında müqavilə(ni)(ləri) bağladığı və "BCR" adı altında müvafiq tikinti layihələrini həyata keçirən tikinti şirkət(lər)inin siyahısı ilə Bankın www.xalqbank.az web-saytında tanış olmaq mümkündür;

4.4.3. **Bankın partnyor olmayan TXM-lərində** - Kartdan istifadə etməklə aparılan hər Nağdsız əməliyyat məbləğinin 2 (iki) faizi miqdarında, lakin hər bir halda bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə aylıq 30 (otuz) AZN-dən (bundan sonra – aylıq limit) çox olmamaq şərtilə.

4.5. Bank tərəfindən Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülən Cashback məbləği Bankın partnyor olmayan TXM-lərində bu Qaydaların 4.4.3-cü yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlar üzrə müəyyən edilmiş aylıq limit nəzərə alınmaqla, bu Qaydaların 4.4-cü bəndində nəzərdə tutulmuş müvafiq Mükafatlandırma dərəcəsinin Hesabat dövrü ərzində aparılmış və Bank tərəfindən bu Qaydaların 4.3-cü bəndinə müvafiq olaraq müəyyən edilmiş Nağdsız əməliyyatların ümumi məbləğinə vurulması nəticəsində hesablanır. Hesablamanın nəticəsi vergüldən sonra ikinci rəqəmə qədər yuvarlaqlaşdırılır.

Bu zaman bir Hesabat dövrü üzrə Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülə biləcək Cashback-in: (i) minimal məbləği 5 (beş) AZN; (ii) maksimal məbləği isə Bankın partnyor olmayan TXM-lərində bu Qaydaların 4.4.3-cü yarımbəndi ilə bir MCC kodlar qrupu çərçivəsində aparılmış Nağdsız əməliyyatlara münasibətdə müəyyən edilmiş aylıq limitdən çox olmamaq şərtilə, 200 (iki yüz) AZN təşkil edir.

Cari Hesabat dövrü üzrə hesablanmış Cashback məbləği bu bəndin ikinci abzasında nəzərdə tutulmuş Cashback-in minimal məbləğindən az olduğu halda, həmin Cashback məbləği cari Hesabat dövrünün sonuncu iş günü Cashback hesabından silinir.

Cari Hesabat dövrü üzrə hesablanmış Cashback məbləği bu bəndin ikinci abzasında nəzərdə tutulmuş Cashback-in maksimal məbləğindən çox olduğu halda, maksimal məbləğdən artıq olan

məbləğ cari Hesabat dövrünün sonuncu iş günü Cashback hesabından silinir, Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına isə Cashback-in maksimal məbləğinə bərabər olan məbləğ köçürülür.

4.6. Bank tərəfindən cari Hesabat dövrü üzrə Cashback hesabında hesablanmış Cashback məbləği həmin Hesabat dövrünün sonuncu iş günündə Kart saxlayıcısının müvafiq "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülür.

Cari Hesabat dövründə Kart saxlayıcısı tərəfindən Nağdsız əməliyyatların aparılmasına görə Cashback hesabında hesablanan Cashback məbləği bu Qaydaların 5.1-ci bəndində qeyd edilmiş "XalqOnline" internet/mobil banking tətbiqinin Bonus bölməsində, habelə, Kart saxlayıcısı tərəfindən "BCR co-brand" Ödəniş kartı üzrə SMS-məlumatlandırma xidməti aktivləşdirildikdə, Bank tərəfindən Kart saxlayıcısına apardığı hər Nağdsız əməliyyat barədə göndərilən SMS mesajda əks olunur.

Bank tərəfindən Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına Cashback məbləğinin köçürülməsi bu şərtlə həyata keçirilir ki, həmin Kartın müddəti bitmiş və ya Kart bu Qaydaların 2.6-cı, 2.8-ci və ya 2.10-cu bəndlərinə müvafiq olaraq ləğv edilmiş və ya daimi bloklanmış olmasın.

Bu bəndin əvvəlki abzasında nəzərdə tutulmuş hallarda Kart saxlayıcısının Cashback hesabında olan Cashback məbləği həmin hesabdan silinir.

4.7. Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülmüş Cashback məbləği Müqavilə ilə nəzərdə tutulmuş şərtlərlə və qaydada həmin Ödəniş kartından istifadə etməklə əməliyyatların aparılması üçün istifadə oluna bilər.

4.8. Müvafiq "BCR co-brand" Ödəniş kartının müddətinin uzadılması və ya digər səbəblərlə bağlı (itirilmə, oğurlanma və s.) Kart saxlayıcısı tərəfindən yeni "BCR co-brand" Ödəniş kartı sifariş olunduqda, Kart saxlayıcısının Cashback hesabında olan Cashback məbləği saxlanılır.

4.9. Aşağıdakı hallarda Kart saxlayıcısının Cashback hesabında olan Cashback məbləği silinir:

4.9.1. "BCR co-brand" Ödəniş kartının müddətinin bitdiyi, həmin Kartın daimi bloklanması halında isə onun bloklaşdırıldığı tarixdən 33 (otuz üç) gün ərzində Kart saxlayıcısı tərəfindən Kartın yenidən buraxılması barədə Banka müraciət edilmədikdə;

4.9.2. Bu Qaydaların 2.6-cı, 2.7-ci, 2.10-cu və 2.11-ci bəndlərində nəzərdə tutulan hallarda, habelə Müqaviləyə bu Qaydaların 2.8-ci bəndi ilə nəzərdə tutulmuş əsasla xitam verildikdə.

4.10. Kart saxlayıcısı "BCR co-brand" Ödəniş kartından istifadə etməklə ödənilmiş malın TXM-ə qaytarılması (iş və ya xidmətdən imtina olunması) əməliyyatını həyata keçirdikdə həmin malın (iş və ya xidmətin) alınması üçün əvvəl həyata keçirdiyi Nağdsız əməliyyata görə hesablanmış Cashback məbləği Bank tərəfindən Cashback hesabında olan Cashback məbləğindən silinir, bu şərtlə ki, qaytarılmış malın (imtina edilmiş iş və ya xidmətin) dəyəri TXM tərəfindən Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülmüş olsun. Cashback hesabında silinmə əməliyyatının aparılması üçün kifayət qədər Cashback məbləği olmadıqda isə silinməli məbləğ Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sından Bank tərəfindən akseptsiz qaydada silinir.

Kart saxlayıcısının KH-sında bu bəndin birinci abzasında nəzərdə tutulmuş silinmə əməliyyatın aparılması üçün tələb olunan məbləğdə pul vəsaiti olmadıqda Kart saxlayıcısı Bank qarşısında yaranmış borcu 3 (üç) iş günü müddətində Banka ödəməyi öz öhdəsinə götürür.

Bununla Kart saxlayıcısı bu bəndin birinci abzasında nəzərdə tutulmuş pul məbləğinin Bank tərəfindən akseptsiz qaydada Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sından, bu bəndin ikinci abzasında nəzərdə tutulmuş öhdəliyi vaxtlı-vaxtında icra etmədiyi təqdirdə isə Kart saxlayıcısının Bankdakı digər hesablarından silinməsinə öz razılığını bildirir.

### *5. Kart saxlayıcısının məlumatlandırılması*

5.1. Bank Kart saxlayıcısını Hesabat dövrü ərzində Nağdsız əməliyyatlar üzrə hesablanan Cashback məbləği, Cashback-i qazandıran Nağdsız əməliyyatlar, Cashback hesabında olan Cashback məbləği (Cashback hesabının balansı) barədə məlumatları Bankın "XalqOnline" internet/mobil bankinq tətbiqinin Bonus bölməsində yerləşdirməklə tanış edir.

Bundan başqa, Kart saxlayıcısı "BCR co-brand" Ödəniş kartı üzrə SMS-məlumatlandırma xidmətini aktivləşdirdikdə Bank tərəfindən Kart saxlayıcısına bu Qaydalarla nəzərdə tutulmuş hər Nağdsız əməliyyat barədə göndərilən SMS mesajın sonunda hesablanmış Cashback məbləği haqqında məlumat əks olunacaqdır.

### *6. Digər şərtlər*

6.1. Bank Kart saxlayıcısının Müqaviləyə müvafiq olaraq verilmiş Ərizəsi əsasında sonuncuya Visa Infinite və Visa Platinum növlərində "BCR co-brand" Ödəniş kartının buraxılmasını həyata keçirdikdə, Kart saxlayıcısı Kartın növünə uyğun olaraq həmin Kart üzrə VİSA İnternational şirkəti tərəfindən təqdim olunan bir sıra üstünlüklər və imtiyazlar əldə etmiş olur. VİSA İnternational şirkətinin müvafiq Kart növü üzrə Kart saxlayıcısına təqdim etdiyi üstünlüklər və imtiyazlarla, onlardan istifadə olunması şərtləri və qaydası ilə Kart saxlayıcısı müvafiq VİSA İnternational şirkətinin https://www.visa.com.az/az_AZ web-saytından tanış ola bilər. Bu xidmətlərin siyahısı VİSA İnternational şirkəti tərəfindən daim yenilənə və ya dəyişdirilə bilər. Kart saxlayıcısı bununla qəbul edir və razılaşır ki, bu bənddə göstərilən web-sayta daxil olmaqla bu yenilik və ya dəyişikliklər barədə mütəmadi məlumat əldə etmiş olur. Bank öz mülahizəsinə uyğun olaraq zəruri hesab etdiyi hallarda VİSA İnternational şirkəti təqdim olunan xidmətlərdə, habelə onların təqdim edilmə şərtləri və qaydasında edilən dəyişikliklərlə bağlı Kart saxlayıcısına bu Qaydalarda nəzərdə tutulan əlaqə vasitələrindən biri ilə məlumat vermək hüququnu özündə saxlayır.

6.2. Bank öz mülahizəsinə uyğun şərtləri müəyyən etməklə "BCR co-brand" Ödəniş kartı üzrə Kart saxlayıcısına digər imtiyazlar da təqdim edə bilər. Kart saxlayıcısı bu imtiyazlarla Bankın www.xalqbank.az web-saytında tanış ola bilər.

6.3. Bu Qaydaların 4.4-cü bəndində nəzərdə tutulmuş müvafiq Mükafatlandırma dərəcələrinə, bir Hesabat dövrü üçün Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına mədaxil edilə biləcək Cashback-in maksimal və minimal məbləğlərinə, Bankın partnyor TXM-lərinin, müvafiq tikinti şirkət(lər)inin, Cashback hesablanması nəzərdə tutulmayan Nağdsız əməliyyatların, MCC kodlar qruplarının siyahılarına, bu Qaydaların 6.2-ci bəndinə müvafiq olaraq Kart saxlayıcısına təqdim olunan imtiyazlara, Cashback hesablanmasının, təqdim edilməsinin, silinməsinin bu Qaydalar və Bankın Tarifləri ilə nəzərdə tutulmuş digər şərtlərinə Bank tərəfindən birtərəfli qaydada dəyişikliklər və/və ya əlavələr edilə bilər.

6.4. Bank tərəfindən bu Qaydalara, habelə Cashback hesablanması nəzərdə tutulmayan Nağdsız əməliyyatların, MCC kodlar qruplarının siyahı(s)(lar)ına və bu Qaydaların 6.2-ci bəndinə müvafiq olaraq Kart saxlayıcısına təqdim olunan imtiyazlara dəyişikliklərin və/və ya əlavələrin edilməsi Müqavilənin 3.2.9-cu yarımbəndində nəzərdə tutulmuş qaydada həyata keçirilir. Kart saxlayıcısı bu dəyişiklik və əlavələrlə Bankın www.xalqbank.az web-saytında tanış ola bilər.

6.5. Bank öz mülahizəsi ilə istənilən vaxt bu Qaydaların qüvvəsini dayandırmaq və ya onlara xitam vermək hüququna malikdir. Bu Qaydaların qüvvəsinin dayandırılması və ya onlara xitam verilməsi haqqında məlumat Bank tərəfindən növbəti Hesabat dövrünün bitməsinə ən azı 50 (əlli) gün qalmış Müqavilənin 3.2.9-cu yarımbəndində nəzərdə tutulmuş qaydada Kart saxlayıcılarının nəzərinə çatdırılır. Bu zaman bu Qaydalar həmin Hesabat dövrünün sonuncu günündən müvafiq olaraq dayandırılmış və ya xitam edilmiş sayılır.

Bank bu Qaydaların qüvvəsinin dayandırıldığı və ya onlara xitam verildiyi tarixdən bu Qaydalarla nəzərdə tutulmuş öhdəliklərinin icrasını dayandırır və ya onlara müvafiq olaraq xitam verir.

Bu zaman Bank cari Hesabat dövrünün nəticələri üzrə Kart saxlayıcısının Cashback hesabına hesablanmış Cashback məbləğinin bu Qaydaların 4.6-cı bəndində nəzərdə tutulmuş qaydada Kart saxlayıcısının "BCR co-brand" Ödəniş kartı üzrə KH-sına köçürülməsini təmin edir.